İRAMİN İSAYEV

# Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək

*Azərbaycan Dövlət Pedaqoji Universtetinin "Ümumi pedaqogika" kafedrasının 19 fevral 2014-cü il tarixli iclasının qərarına əsasən çap edilir.(pr №13)*

- 15195 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2014

74.03(5Aze) + 63.3(5Aze)-7
İ 74

**Elmi redaktoru:** ***F.A.Rüstəmov,***
*Pedaqoji elmlər doktoru, professor*

**Rəyçilər:** ***Ə.Ağayev,***
*Pedaqoji elmlər doktoru, professor*

***Y.Babayev,***
*Filoloji elmlər dokroru, professor*

***M.İ.İlyasov,***
*Pedaqoji elmlər dokroru, professor*

**Redaktor:** ***A.Ş.Hüseynəliyeva***
*ARTPİ-nin doktorantı*

**İ.İsayev Pedaqoji irsimizdən: Molla Vəli Vidadidən Hacı Kərim Sanılıyadək. Pedaqoji-metodik ədəbiyyat. Bakı: 2014, 406 səh.**

*Kitabda Azərbaycan pedaqoji fikir tarixində önəmli yeri olan M.V.Vidadinin, M.P.Vaqifin, Q.Zakirin, A.Səhhətin, H.K.Sanılının ədəbi-bədii əsərlərinin pedaqoji siqləti, gənc nəslin əxlaqi-mənəvi tərəqqisində önəm daşıyan istiqamətləri aşkarlanmışdır, təlim və tərbiyənin müxtəlif problemləri ilə bağlı fikirləri, yazmış olduğu dərslikləri təhlil olunaraq ümumiləşdirilmişdir. Kitab pedaqogika tarixçiləri, müəllimlər, magistr və tələbələr üçün faydalıdır.*

© $\frac{1947216418}{200(P)0014}$ - 2014



***Əziz Ləman nəvəmin ana nəvazişi, ata qayğısı əhatəsində boya-başa çatması, İlqar və Tamaraya ailə bütövlüyü, nəvə istəyi ilə...***

***Müəllif***

# Giriş

*"Xalq daim gərək öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın".*

***Heydər Əliyev***

Azərbaycan xalqının mənəvi mədəniyyəti, o cümlədən məktəb və pedaqoji fikir tarixi qədimliyi qədər də zəngindir. Xalq yaradıcılığı nümunələri digər xalqlarda olduğu kimi Azərbaycan xalq pedaqogikasının da ilk müjdəçisidir (Ə.Seyidov). Xalq yaradıcılığında qoyulan ən gözəl əxlaqi keyfiyyətlər və nəcib davranış normaları sonralar Azərbaycan pedaqoji fikir klassiklərinin əsərlərində daha yüksək pilləyə qaldırılmış, inkişaf etdirilmiş, daha dərin məzmun almışdır. Yaradıcılığında müəyyən əxlaqi-didaktik, etik və estetik mülahizələr az və ya çox dərəcədə öz əksini tapmamış sənətkar təsəvvür etmək mümkün deyildir.

XII əsrdən başlayaraq Azərbaycanın müdrik filosofları, şair və yazıçıları, işıqlı zəka sahibləri təlim-tərbiyə və məktəb təhsilinin aktual məsələləri ilə bağlı orijinal fikirlər söyləmiş, müəyyən nəzəri konsepsiyalar irəli sürmüşlər. Azərbaycan pedaqoji fikir klassiklərinin – N.Gəncəvi, M.Füzuli, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, M.T.Sidqi, S.M.Qənizadə, R.Əfəndiyev, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, F.Köçərli, Ü.Hacıbəyov, F.Ağazadə, N.Nərimanov, Ə.Hüseynzadə,Ə.Ağaoğlu,A.Ə.Sur, Ə.Cavad, H.Cavid, M.Hadi, H.K.Sanılı və b. zəngin irsində şəxsiyyətin əqli, əxlaqi, fiziki, estetik tərbiyəsi, mənəvi və ruhi inkişafı problemi başlıca yer tutmuşdur. Zaman keçdikcə tarixi şəraitlə bağlı şəxsiyyətin ahəngdar inkişafı məsələsi yeni məzmun və məna kəsb etmiş, bitkin konsepsiya şəklini almışdır. Azərbaycan maarifpərvərləri, məktəbdarları insanın şəxsiyyət kimi formalaşmasına, cəmiyyətin inkişafında xüsusi roluna yüksək qiymət vermişdir. Buna

görə də onlar həyatı gözəlləşdirmək, zülmü, istibdadı aradan qaldırmaq üçün şəxsiyyətlərə ümid bağlamışlar.

Azərbaycan pedaqoji fikrində insanların mənəvi aləmi, əxlaqi yetkinliyi, fiziki hazırlığı, estetik gözəlliyi ön plana çəkilmiş, mənəvi saflıq, kamillik, paklıq, ülvilik, məhəbbət həyatın mənası hesab olunmuşdur. Azərbaycan pedaqoji fikrində özünə yer tutan bu konsepsiya Şərq fəlsəfəsindən, ulu xalq yaradıcılığından süzülüb gəlirdi. Məhz Şərq fəlsəfəsi "dünyanın əzəl mahiyyətini, hüdudsuzluğunu... insanda, insanın aliliyində, müdrikliyində, əxlaq təmizliyində, yəni allahı özündə tapmaqda görmüşdür".[1]

Azərbaycan mütəfəkkirləri, maarifpərvərləri və məktəbdarları öz yaradıcılıqları, elmi-pedaqoji fəaliyyətləri ilə yaşadıqları zamanənin çətinliklərindən asılı olmayaraq həmişə fərqlənmiş, "hakimi mütləqlərdən" mənən yüksəkdə dayanmış, xalq kütləsinə yaxın olmuş, insana əzab-əziyyət, ölüm və qorxu, mənəvi yoxsulluq və kasıblıq, əxlaqi naqislik gətirən dövrün eybəcərliklərini açmaqdan, tənqid etməkdən çəkinməmiş, şəxsiyyətin inkişafında mühitin, irsiyyətin, tərbiyənin rolunu düzgün anlamış, təlim və tərbiyəni hamı üçün lazım bilmiş, insanlarda ən gözəl əxlaqi keyfiyyətlərin formalaşmasına çalışmışlar. Onların bəziləri xüsusi etik traktatlar, nəsihətnamələr yazmış, bəziləri də öz məqalə və məktublarında, bədii əsərlərində tərbiyə məsələlərinə geniş yer vermiş, bunu ümumi tərəqqi işinin mühüm amili hesab etmişlər. Bu da səbəbsiz deyil, axı hər bir dövlətin əsasını gənclərin tərbiyəsi təşkil edir. Bu baxımdan da gəncliyə düzgün tərbiyə vermək, ona düzgün rəhbərlik etmək dövləti yaratmaq və qorumaq qədər zəruridir.

Qədim və zəngin olan Azərbaycan pedaqoji fikir tarixinin öyrənilməsi, tədqiqi və tədrisi bu gün – tarixi keçmişə, soykökə, qan yaddaşına qayıdış prosesində milli özünüdərkin, milli ləyaqətin formalaşdırılması baxımından daha aktual, önəmli və dəyərli bir məsəlidir.

Xalqın dünya elminə və mədəniyyətinə buraxılış vəsiqəsi, mənəviyyat pasportu hesab edilən görkəmli şəxsiyyətlərin təlim-tərbiyə haqqında fikirlərinin tədqiqi bir də ona görə böyük elmi-

[1] Cərulla qızı N. Mütəfəkkirlər şəxsiyyət haqqında. Bakı: Azərnəşr, 1991, səh. 94.





nəzəri əhəmiyyət kəsb edir ki, onların ideya irsi bu gün də öz təravətini itirməmişdir. Bu mənada onların təlim-tərbiyə haqqında fikirlərinin tədqiqi yalnız mədəni irsimizi öyrənmək nöqteyi-nəzərindən deyil, həm də bugünkü tərbiyə işlərimizi düzgün qurmaq üçün də ciddi məna kəsb edir. Bu gün ***əsas məqsəd daxili dinamizmdən, özünü dərk etmək və inkişaf etdirmək, bəşəri dəyərlərdən bəhrələnmək imkanlarından məhrum edilmiş, ictimai şüuru yanlış təsəvvürlərlə dolu olan əsl-nəcabətindən xəbərsiz "beynəlmiləlçi" manqurtlar nəsli yox, milli istiqlal ideyasının daşıyıcısı olan gənclər yetişdirməkdən ibarətdir.***[2] Deməli, təhsil sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan, söykökünə Azərbaycan xalqının azadlıq və demokratiya ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə yiyələnən, ailəsini, vətənini, millətini sevən və daim ucaltmağa çalışan, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın ən qabaqcıl ölkələrinin vətəndaşları səviyyəsində dura bilən, bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkişaf etmiş, demokratik dövlətlərindən birinə çevirməyə qabil insan və vətəndaş formalaşdırmaq missiyasını reallaşdırmaqdır. Bu məsələ yeni Təhsil Qanununda da öz əksini tapmışdır.[3]

Sadalanan yüksək bəşəri keyfiyyətlərə, insani hisslərə malik olan, Vətən, torpaq, el-oba təəssübü çəkən gənclərin tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında pedaqogika tarixinin, Azərbaycan məktəb və pedaqoji fikir tarixinin xüsusi yeri var. Pedaqogika tarixi kursunun tədrisi tələbələrin pedaqoji bilik dairəsinin genişlənməsinə, keçmişin pedaqoji irsinə və təcrübəsinə düzgün münasibət bəsləmək bacarığı qazanmasına xidmət edir. Azərbaycan məktəb və pedaqoji fikir tarixi respublikamızın pedaqoji universitet və institutlarında hazırlanan gələcək müəllimləri Azərbaycan xalqı-

[2] Rüstəmov F. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən. Bakı: APU, 1992, səh. 3.
[3] Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı: 2009

nın zəngin pedaqoji irsi, tərbiyə, təhsil, təlim nəzəriyyəsi və təcrübəsi ilə tanış edir. Bu kursun tədrisi tələbələrin ümumi pedaqoji bilik dairəsini genişləndirir, ümumdünya məktəb və pedaqoji fikir tarixi zəminində Azərbaycan xalqının məktəb və pedaqoji fikrinin səviyyəsinə dair biliyini zənginləşdirir.[4]

Tədqiqatçılar (Ə.Seyidov, M.Mehdizadə, M.Muradxanov, H.Əhmədov, Ə.Həşimov, A.Rzayev, Ə.Ağayev, F.A.Rüstəmov, A.Abbasov, İ.İsayev, R.Hüseynzadə, Ə.Cəlilov, İ.Mollayev, V.Bəşirov və b.) Azərbaycan məktəb və pedaqoji fikrinin bu və ya digər məsələləri ilə bağlı diqqətəlayiq elmi araşdırmalara nail olsalar da, bu gün ən qədim dövrlərdən indiyə kimi pedaqoji fikrin inkişaf istiqamətlərini müəyyənləşdirən, bütün maarifpərvərlərimizin, məktəbdarlarımızın təlim-tərbiyə, şəxsiyyətin inkişafı ilə bağlı görüşlərini özündə ehtiva edən fundamental araşdırmalara, məktəb tarixinin spesifik inkişaf xüsusiyyətlərini səciyyələndirən tədqiqatlara ehtiyac vardır.

Sovet dövründə aparılmıştədqiqatların bəzilərində marksizm-leninizm metodologiyasına istinad edildiyindən problemlər müəyyən məhdudiyyət daxilində araşdırılmış, hakim konsepsiyaya uyğun gəlməyən fikirlər atılmış, beləliklə də, klassiklərimizin daha gərəkli əsərləri çox hallarda tədqiqatdan təcrid edilmişdir.

Hələ vaxtilə prof. Ə.Seyidov yazırdı ki, biz hansı səbəbdənsə bəzən mütərəqqi pedaqoji ideyaların mənşəyini Avropada axtarır və bu sahədə yaxşı hər nə varsa, Avropaya aid edir, Şərqə isə göz yumuruq. Təlim-tərbiyə sahəsində XIV-XV əsrlərin Qərb humanistləri tərəfindən irəli sürülən idyaların bir çoxu daha inkişaf etmiş, daha humanist və demokratik istiqamətdə Şərqin XII-XIII əsr görkəmli alimləri tərəfindən irəli sürülmüşdür. Təsadüfi deyildir ki, Amerika alimlərindən biri XIII əsrin məşhur Azərbaycan alimi N.Tusi haqqında yazmışdır: "Əgər Qərb alimləri Tusinin nələr yaratdığından xəbərdar olsaydılar, o zaman öz kəşflərini yeni hesab etməzdilər".[5] Təkcə onu qeyd edək ki, Tusinin "Əxlaqi-Na-

[4] Azərbaycan məktəb və pedaqoji fikir tarixi. (Proqram. Tərtib edənlər: H.M.Əhmədov, M.Ə.Muradxanov, Ə.S.Tağıyev, İ.N.İsayev, F.A.Rüstəmov) Bakı: APU, 1992, səh. 4.

[5] Сеидов А.Ю. О состоянии изучения истории педагогической мысли в





siri" adlı traktatı dövrünün pedaqoji dərsliyi rolunu oynamış, onun Marağa Rəsədxanası Şərq münəcatında şərəfli yer tutmuşdur.

Azərbaycan məktəb və pedaqoji fikir tarixinin təbliği, ali pedaqoji təhsil müəssisələrində öyrədilməsi***akademik Hüseyn Əhmədovun*** adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə elmi fədakarlığı nəticəsində hələ 70-ci illərdə "Azərbaycan məktəb və pedaqoji fikir tarixi "xüsusi kursunun proqramı hazırlanmış, Azərbaycan və rus dillərində nəşr olunmuş, həmin proqram üzrə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində, Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetində, Tbilisi Dövlət Pedaqoji İnstitutunda xüsusi kurs və seminar sınaqdan keçirilmiş, keçmiş ittifaq maarif nazirliyinin pedaqogika üzrə elmi-metodik şurasının pedaqogika tarixi komissiyasının 1981-ci il 15 dekabr tarixli iclasında xüsusi müzakirə edilərək bəyənilmiş və onun yayılması məsləhət bilinmişdir. Ən qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər Azərbaycanda təlim-tərbiyə, məktəb təhsilinin meydana gəlməsini və inkişaf tendensiyalarını tələbələrə öyrətmək məqsədi daşıyan kurs əksər ali pedaqoji təhsil müəssisələrinin tədris planlarına seçmə fənn kimi daxil edilmişdir. Akademik H.M.Əhmədovun "Azərbaycan məktəb və pedaqoji fikir tarixi"[6] dərs vəsaiti rus və Azərbaycan dillərində nəşr olunmuşdur. Dərs vəsaitlərində ən qədim dövrdən Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf istiqamətləri araşdırılmış, təlim-tərbiyə, məktəb təhsilinin vəziyyəti səciyyələndirilmiş, küllü miqdarda arxiv və mətbu sənədləri təhlilə cəlb olunmuş, xeyli fakt və hadisələr pedaqoji fikir süzgəcindən keçirilmiş, orijinal pedaqoji fikir nəzəriyyəçilərinin görüşləri sistemləşdirilmiş, tarixin obyektivlik prizmasından işıqlandırılmış, xalqın milli şüurunun oyanışına təsir edən faktorlar iqtisadi, ictimai-siyasi hadisələr fonunda tədqiq olunmuş və dəyərləndirilmişdir.

Azərbaycan pedaqoji fikir tarixində hərtərəfli inkişaf etmiş, insan şəxsiyyəti haqqında bitkin konsepsiya irəli sürən, insanı fizi-

Азербайджане, В сб. «Педагогические проблемы», Материалы 1-ой объединенной конф. институтов пед. наук. Азербайджана, Армении, Грузии. Ерэван, 1966, с. 185.

[6] H.Əhmədov.Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, 2001

ki və mənəvi cəhətdən kamil, harmonik inkişafda görmək istəyən sənətkarlar içərisində Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, A.Səhhət, H.K.Sanılı da xüsusi yer tutur. Onların əsərlərində geniş tərənnüm edilmiş, daha doğrusu, məzmunu, mahiyyəti, kriteriyaları şərh edilmiş gözəl və nəcib əxlaqi keyfiyyətlər – yüksək humanizm, əxlaqi borc, vətənpərvərlik, dostluq, yoldaşlıq, əməksevərlik, sədaqətlilik, mehribançılıq, doğruçuluq, mərdlik, qonaqpərvərlik, dəyanətlilik, vəfalılıq və s. indiki nəslin milli ruhda tərbiyəsində əvəzsiz sərvətdir.

M.V.Vidadinin, M.P.Vaqifin, Q.Zakirin,A.Səhhət, H.K.Sanılı pedaqoji irsi ilə bağlı indiyə kimi tədqiqat aparılmadığından və eyni zamanda onların təlim-tərbiyə haqqında fikirlərinin gələcək müəllimlərə öyrədilməsi nəzərdə tutulduğundan[7] bu sahədə ilk təşəbbüs göstərilmiş, gənc nəslin əxlaqi-mənəvi inkişafında bu gün də əhəmiyyətini itirməyən, aktuallığı ilə seçilən ədəbi-bədii əsərlərinin pedaqoji siqləti aşkarlanmış, tədqiq edilib üzə çıxarılmışdır.

[7] Azərbaycan məktəb və pedaqoji fikir tarixi. (Proqram. Tərtib edənlər: H.M.Əhmədov, M.Ə.Muradxanov, Ə.S.Tağıyev, İ.N.İsayev, F.A.Rüstəmov) Bakı: APU, 1992.





# I FƏSİL
# MOLLA VƏLİ VİDADİ: HƏYATI VƏ YARADICILIĞI (1707-1809)

## 1.1. Molla Vəli Vidadinin həyatı



Molla Vəli Vidadi 1707-ci ildə Şəmkir şəhərində anadan olmuşdur. Şairin adı Vəli, təxəllüsü Xəstə Vidadi, atasının adı Məhəmməd, anasının adı isə Xədicədir. Yüksək dini biliyinə və yazı-pozu işləri ilə məşğul olduğuna görə xalq arasında Molla Vəli kimi tanınmışdır. Şairin nəvəsi Mirzə Pənah Vidadinin 1876-cı ildə Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbova yazdığı məktubunda deyilir: "Vidadinin atası şəmkirlidir. Vidadinin özü də orada təvəllüd edib. Atasının ölməsinə səbəb Şəki tərəfindən gəldiyi yerdə tavlular (Dağlılar deməkdir, qaçaq mənasında işlənilir) tökülüb, bu da əl-ayaq edən vədə öldürüblər. Vidadi də oxumaqdan olub, gəlib axırı Poyluda oxuyarmış. Hacı Qasımın hörmətli vaxtı imiş. O da qabiliyyəti olmağa görə qoymayıb, bir neçə sənə qalıb. Sonra Əhmədağa eşidib Hacı Qasımdan istəyib ki, mənə göndər, mənim mollam yoxdur. Özü də binadan bizim nəsildəndir. O da verib, gəlib Şıxlıda bina olub... Şıxlının əsli Şəmkirdən gəlmədir. Ona görə Vidadi də burada sakin olub".[8] Məhəmməd ağa adlı bir nəfərin məktubunda isə bu deyilənlər bir daha təsdiq olunur: "Vidadinin dünyaya gəlməyi Şəmkirdədir. Şəmkirli Məhəmmədbəyin oğludur. Rövşənin oğlu Əhməd ağanın bəy vaxtı gəlib Şıxlı Əhmədağaya mirzə olub, Rəklix (İrakli xan) xan vaxtında Şıxlıda dünyadan köçübdür. 1225-də... və onun övrəti Qıraq Salahlı sakini Molla Cəbrayıl namın qızı Pəri namədir".[9]

[8] Araslı H. XVII–XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1956, səh. 255.
[9] Yenə orada, səh. 255.

Yazılanlardan belə aydın olur ki, M.V.Vidadi 18 yaşına kimi Şəmkirdə yaşamış, orada dini təhsil almış, ərəb-fars dillərinə mükəmməl yiyələnmişdir. Atası Məhəmmədin ölümü onu sarsıtsa da Poyluda təhsilini davam etdirmiş, azsonra anası ilə birgə Qazağın Şıxlı kəndinə köçmüş, burada – Qıraq Salahlıda yaşayan Molla Cəbrayılın qızı Pəri xanımla ailə həyatı qurmuş, bir müddət Əhmədağanın yanında mirzəlik, katiblik və məktəbdarlıqla məşğul olmuşdur.

Əhmədağanın vəfatından sonra Vidadi 1756-ci ildə dostu Vaqiflə birgə Qarabağın Gülüstan xanlığına köçmüşdür. Şairin əsərlərindən aydın olur ki, o, burada da çox yaşamamış və Şıxlıya qayıtmışdır. O, saraylardan uzaqlaşmış, kənd təsərrüfatı və məktəbdarlıqla məşğul olmuş, bədii yaradıcılıqla məşğul olaraq şeirlərini nizama salmışdır. F.Köçərlinin yazdığına görə, Molla Vəlinin yaxşı elm və savadı, rəvan təbi var imiş və özü də zöhdü təqva əhli olub, vaxtının çoxunu ibadətdə keçirərmiş. "Haqq söyləyən və haqqı dost tutan bir vücud imiş ki, hər kəsin eybini açıq söyləməkdən bak və ictinab etməz imiş. Ona binaən şairdən dilgir və rəncidə olanların ədədi az deyil imiş".[10]

Vidadi zəmanəsinin məşhur şairi olmaqla bərabər, həm də siyasətçimiş. Onun bacarığı, qabiliyyəti saray adamlarının diqqətindən yayınmamış, şair bir müddət Gülüstan xanlığının sarayında yaşamışdır. Vidadi özü Vaqifə yazmış olduğu mənzum məktubların birisində qeyd edir:

Dövtələb oluban gedibsən xandan
Ölüncə çıxmanam ta gülüstandan.[11]

Vidadi haqqında yazanların bir çoxu onun II İraklin sarayında yaşadığını göstərir. Son tədqiqatlar isə bu faktı təkzib edir. T.Dünyamalıyeva əsaslı dəlillərlə və tarixi faktlarla, şairin qohumlarının verdiyi məlumatlara istinad edərək sübut edir ki, "Vidadi II İraklinin sarayında yaşamamışdır. ...Onun (Vidadinin) qardaşı Tiflisdə yaşamışdır. Bu yolla da Vidadi Tiflisdə çox olub. Oranın mühiti

[10] Araslı H. XVII–XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1956, səh. 255.
[11] Molla Vəli Vidadi, Əsərləri. Bakı: Azərnəşr, 1977, səh. 28.





ilə yaxından tanış olmaq imkanı tapmışdır. Lakin Vidadi İraklinin sarayında olmamış və Tiflis şəhərində yaşamamışdı. Qazax əhlinə yaxın olan, ağıllı vətədbirli II İraklinin gənc oğlu Levanın öldürülməsi onu sarsıtmış, ürək ağrılarını şeirə çevirmişdir".[12]

Vidadi dövrünün qabaqcıl adamları, şairləri ilə də yaxından dostluq edirmiş. O, Vaqif, Hüseyn xan Müştaq, Ağqızoğlu Piri, Sarı Çobanoğlu ilə yaxın dost olmuşdur. Vidadi ömrünün son illərində dostlarının çoxunu itirir. Vaqif və Hüseyn xan faciənə surətdə öldürülür, cavan oğlunun əlində tüfəng açılıb özünə dəyir və ölür. Bu faciəli hadisələr şairə dərin təsir edir, bir sıra kədərli və mərsiyə xarakterli əsərlərin yazılmasına səbəb olur.

Vidadi ömrünün qürub çağlarına qədər Şıxlıda yaşamış, 1809-cu ilin ilk günlərində, 102 yaşında vəfat etmiş, Şıxlı kəndinin köhnə qəbristanlığında–Gəmiqaya adlanan yerdə dəfn olunmuşdur. Şairin qəbri üzərində aşağıdakı beyt yazılmışdır:

Kim Vidadi Xəstənin qəbrini görüb etsə dua,
Edə həq rəhmət, şəfi ola Məhəmməd Mustafa.

Təəssüflər olsun ki, bu ağır təmkinli və vüqarlı şairimizin bioqrafiyası vaxtında yazılmamış, şeirləri toplanmamış, onun şəxsiyyətinə aid bir-birini təkzib edən fikirlər şairin real simasını dumanlandırmış (A.Dadaşzadə), haqqında müxtəlif versiyalar yayılmışdır. M.Y.Nersesov "Müntəxəbate-məcmueye-əşare M.P.Vaqif və digər müasirləri" (1828) və A.Berje "Qafqazda məşhur olan Azərbaycan şüərasının əşarına məcmuə" (1868) adlı müntəxəbatlarında şairin tərcümeyi-halı üzərindən sükutla keçmişlər. M.F.Axundov isə "Zurna" məcmuəsində Vidadinin yalnız adını çəkməklə kifayətlənmişdir. İlk dəfə Müfti Hüseyn Əfəndi Qayıbov "Azərbaycanda məşhur olan şüəranın məcmuəsi" ilə (əlyazması) Vidadinin otuza yaxın şeirini vermiş, onun həyatının bəzi cəhətlərinə diqqət yetirmiş, sonrakı tədqiqatlar üçün qiymətli zəmin qoymuşdur.

M.Müctəhidzadə "Riyazül-aşiqin" adlı müntəxəbatında qısa şəkildə Vidadinin həyatından və fəaliyyətindən bəhs edir.

XX əsrin əvvəllərində Vidadi haqqında həqiqətə uyğun olma-

[12] Dünyamalıyeva T. Molla Vəli Vidadi. Bakı: Yazıçı, 1987, səh. 57.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

